**"Hərbiləşdirilmiş Mühafizə İdarəsi" MMC-nin 2023-cü il üzrə audit edilmiş maliyyə hesabatlarının qısa icmalı**

"Hərbiləşdirilmiş Mühafizə İdarəsi" MMC-nin (Cəmiyyət) fəaliyyət istiqamətləri mühafizə və nəzarət-buraxılış rejiminin təmin edilməsi, baş verə biləcək neqativ hallara qarşı mübarizə tədbirlərinin gücləndirilməsi xidmətlərinin təşkilidir.

2023-cü ildə Cəmiyyətin gəlirləri əvvəlki illə müqayisədə 32% artaraq 11,4 milyon manata çatmışdır. 2023-cü ildə əməliyyat xərclərinin 96%-ni işçi heyəti ilə bağlı ödənişlər təşkil etmiş və ümumilikdə 10,9 milyon manat olmuşdur. Cəmiyyət 2023-cü ildə fəaliyyətini uğurla həyata keçirmiş və 360 min manat mənfəət əldə edərək əvvəlki illərdən yığılmış zərərini bağlamışdır.

Müəssisənin cari aktivləri, öhdəlik və kapitalını ötən illə müqayisə etdikdə müsbət dinamika ilə dəyişiklik müşahidə olunur. Xalis aktivlərin dəyəri il ərzində 360 min manat artmışdır.